

*Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.*



AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

20 NOYABR 2024-cü il ÇƏRŞƏNBƏ № 255 (8013) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ




## COP29: Qlobal təşəbbüslərlə gələcəyə "yaşıl işıq"

***BMT**-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının - COP29-un Bakıda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsi və böyük inamın təzahürüdür. Prezident İlham Əliyev Azərbaycanın COP konfranslarında iştirakının əsas məqsədinin həm ölkəsinin ekoloji siyasətini təqdim etmək, həm də qlobal səviyyədə iqlim dəyişmələrinin qarşısının alınmasına dair fikir mübadiləsi və əməkdaşlıq qurmaq olduğunu bildirmişdir.*

İqlim dəyişmələri ilə mübarizənin yalnız bir neçə ölkənin deyil, bütün dünyanın birgə səyləri ilə həll edilə biləcəyini xüsusilə qeyd edən dövlət başçısının çıxışı Azərbaycanın bu sahədə beynəlxalq əməkdaşlığa verdiyi önəmi və ölkənin enerji siyasətindəki "yaşıl texnologiya"lara yönəlmiş strategiyasını əhatə edir. Azərbaycan Prezidentinin Sərəncamı ilə 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Sərəncamda bildirilib ki, ölkəmiz beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir. Qlobal təşəbbüslərə həmişə ilk qoşulan ölkələrin sırasında olan Azərbaycan bərpaolunan enerji sektorunun yaradılması istiqamətində önəmli addımlar atıb. Dünyanın nəhəng şirkətləri ilə anlaşma memorandumları imzalanıb. Ölkəmiz bütün sahələrdə olduğu kimi, bu məsələdə də Cənubi Qafqazda birincidir. "Yaşıl enerji" növlərinin yaradılması və onun dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Hədəf 2030-cu ilə qədər istixana effekti yaradan qazların emissiyalarını 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaltmaqdır.

*"COP29 çərçivəsində Birləşmiş Krallığın bp şirkəti ilə 240 meqavatlıq Günəş enerjisi stansiyasının dörd il əvvəl erməni işğalından azad edilmiş Cəbrayıl rayonunda tikilməsi ilə bağlı saziş imzalanacaq. Bu layihə sayəsində dünyanın ən iri neft və qaz terminallarından biri olan Səngəçal terminalında dekarbonlaşma təmin ediləcəkdir. Biz 2030-cu ilə qədər təxminən altı giqavatlıq günəş, külək və hidroenerji stansiyalarının tikilməsini planlaşdırırıq".* Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Bakıda COP29-un Liderlər Sammitinin açılış mərasimində deyib. Azərbaycanın enerji resurslarının şaxələndirilməsi ilə bağlı görülən işlərə toxunan dövlət başçısı bildirib ki, ölkəmiz Qara dəniz sualtı enerji xətti ilə öz enerjisini ixrac edəcək.

**(davamı 4-cü səhifədə)**

# COP29: Qlobal təşəbbüslərlə gələcəyə "yaşıl işıq"



(əvvəli 1-ci səhifədə)

Azərbaycan hökuməti Naxçıvan Muxtar Respublikasını, işğaldan azad olunmuş Şərqi Zəngəzur və Qarabağ ərazilərini "yaşıl enerji" zonası elan edib. İşğaldan azad olunmuş bölgələrə Böyük Qayıdış başlanılıb. Bərpa-quruculuq çərçivəsində həyata keçirilən meqalayihələr "yaşıl texnologiya"lara əsaslanır. Azad olunmuş bölgələrdə "ağıllı şəhər"lər, kəndlər salınır, təmiz nəqliyyat infrastrukturu yaradılır. Azərbaycan digər mühüm enerji təhlükəsizliyi layihələrini həyata keçirir. Ölkəmiz təşəbbüslər irəli sürür, mötəbər tədbirlərə ev sahibliyi edir, konkret işlər həyata keçirir. Azad edilmiş bölgələrin dirçəldilməsi üçün dövlət başçısı tərəfindən innovativ konsepsiyalar ortaya qoyulub. Yaşayış məntəqələrinin "Ağıllı şəhər", "Ağıllı kənd" layihələri üzrə yenidən qurulması, təbiətin sürətli və ən yüksək səviyyədə bərpa olunması, həmçinin getdikcə artan enerji tələbatının daha çox "yaşıl enerji" mənbələrindən istifadə olunaraq təmin edilməsi qlobal iqlim dəyişmələrinə verilən ən böyük töhfədir. İri şəhərlərdə, xüsusən Bakıda, Sumqayıtda, Gəncədə elektromobillərdən, eləcə də velosiped və skuterlərdən istifadə edənlərin sayı artıb. Ümumiyyətlə, rəsmi Bakı iqlim dəyişmələrinə qarşı qlobal mübarizəni sistemli olaraq dəstəkləyir və enerji səmərəliliyi ilə bağlı tədbirlər görür. Azərbaycan beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizədə öz töhfəsini verərək ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparır.

Respublikamızın şəhər və rayonlarının davamlı inkişafının təmin olunması, habelə işğaldan azad edilmiş ərazilərin bərpası, "yaşıl enerji"yə keçid, gələcək inkişafın təmin olunması, zəruri infrastrukturun yaradılması, ekoloji təhlükəsiz mühitin təmin edilməsi Azərbaycanın dövlət siyasətində mühüm yer tutur. 2030-cu ilə qədər sosial-iqtisadi inkişafın milli prioritetlərindən biri də məhz "Təmiz ətraf mühitə və "yaşıl inkişaf"a malik ölkə" olmasına çalışmaqdır. Azərbaycan müxtəlif ekoloji layihələrdə iştirak edir və iqlim dəyişmələrinin qarşısının alınması istiqamətində beynəlxalq layihələri dəstəkləyir. COP29 çərçivəsində kiçik ada dövlətlərinin sammiti, bu ölkələrin qarşılaşdığı iqlim dəyişmələri və ekoloji çətinliklərə dair xüsusi müzakirələrin aparılacağı bir mərhələdir. Millətlər Birliyinin kiçik ada dövlətlərindəki birgə layihələrini dəstəkləmək üçün 10 milyon ABŞ dolları məbləğində vəsait ayırması, bu ölkələrin iqlim dəyişmələri ilə mübarizə, dayanıqlı inkişaf, təbii fəlakətlərə qarşı müqavimət və ekosistemləri qoruma kimi sahələrdə fəaliyyətlərini dəstəkləməyə yönələcək. Bu addım Azərbaycanın iqlim dəyişmələri, davamlı inkişaf və beynəlxalq əməkdaşlıq sahələrindəki fəallığını bir daha göstərir. Sammitin yekununda Prezident İlham Əliyev həmrəylik və beynəlxalq əməkdaşlığın əhəmiyyətini bir daha xatırladaraq, iqlim dəyişmələri ilə mübarizədə birgə fəaliyyət göstərməyin vacibliyini bildirmişdir.

Azərbaycanın günəş və külək enerjisi potensialını və bu sahədə həyata keçirilən layihələri diqqətə çatdıran dövlətimizin başçısı, həmçinin ölkənin karbon emissiyalarını azaltmaq məqsədilə bərpaolunan enerji istehsalını artırmaqda qərarlı olduğunu vurğulayıb. Prezident İlham Əliyev Bakının bu önəmli tədbirə ev sahibliyi etməsini Azərbaycanın qlobal səviyyədə etimad qazanmasının və beynəlxalq arenada mühüm iştirakının göstəricisi kimi dəyərləndirib. Tədbirin keçirilməsi, həmçinin iqtisadiyyatın və sosial sahələrin inkişafına dəstək olaraq ölkənin imicinə müsbət təsir göstərir. Prezident İlham Əliyevin Azərbaycanın dünya arenasında ekoloji məsələlərə qarşı səyləri, "yaşıl enerji" təşəbbüsləri və iqlim dəyişmələri ilə mübarizədəki liderlik mövqeyi bir daha təsdiqlənmiş oldu. Sammit ölkələrin birgə qərarlar qəbul edərək daha yaxşı gələcək üçün əməkdaşlıq edəcəyinə ümid yaratdı.

Ölkə başçısı COP29-un Liderlər Sammitinin açılış mərasimində çıxışı zamanı mühüm mesaj verdi. Prezident bütün təzyiq cəhdlərinə baxmayaraq, Azərbaycanın öz torpaqlarını azad etdiyini xüsusilə vurğuladı: "Bir il əvvəl biz BMT-nin Nizamnaməsinə, beynəlxalq hüquqa və BMT-nin Təhlükəsizlik Şurasının 30 il kağız üzərində qalmış qətnamələrinə uyğun olaraq suverenliyimizi tam bərpa etdik. Biz həmin qətnamələri özümüz icra etdik, beynəlxalq hüququ, ədaləti bərpa etdik və Ermənistanın işğalına son qoyduq. COP29-un sədri kimi Azərbaycan inkişaf etmiş və inkişaf edən ölkələr, Qlobal Cənub və Qlobal Şimal arasında ümumi anlaşmaya nail olmaq üçün əlindən gələni edəcək. Azərbaycan 120 ölkənin yekdil qərarı ilə dörd il ərzində BMT-dən sonra ikinci beynəlxalq qurum olan Qoşulmama Hərəkatına uğurla sədrlik etdi". Azərbaycan çoxtərəfliliyin tərəfdarıdır, eyni zamanda mədəniyyətlərarası dialoqda fəal rol oynayır. Multikulturalizm dövlət siyasətimiz və həyat tərzimizdir. Azərbaycan xalqı etnik, dini mənsubiyyətindən asılı olmayaraq, digər millətlərlə hər zaman ahəngdar şəkildə, bir ailədəki kimi yaşayır. Reallıq budur ki, ekoloji fəlakətlərin əsas səbəblərindən biri müharibələrdir. Bunun bariz nümunəsi isə Azərbaycandır. 30 il ərzində torpaqlarımız işğal altında olarkən Ermənistanın ekosid və urbisid törətdiyinin şahidi olduq. Yalnız mina çirkləndirilməsi belə ayrıca bir problemdir. Bu gün Azərbaycan dünyada ərazisi mina ilə ən çox çirklənən ölkələrdən biridir. Sülhə nail olmaq, dünyada əmin-amanlığı qorumaq üçün çalışmalıyıq. Bu gün dünyanın qarşısında duran ən vacib məsələlərdən biri də budur. Bu açıqlamalar Azərbaycan dövlətinin sülhə, multikulturalizmə və ekoloji təhlükəsizliyə verdiyi önəmi bir daha göstərir. Dinlərarası dialoq və əməkdaşlıq təşəbbüsləri ilə Azərbaycan həm bölgədə, həm də qlobal arenada barışın və əmin-amanlığın təmin olunmasına töhfə verməyə davam edir.

"Yaşıl dünya naminə həmrəylik ili"ndə COP29-un ölkəmizdə keçirilməsi əldə etdiyimiz davamlı uğurlardan olmaqla yanaşı, Azərbaycanın ərazi bütövlüyünün və regionun lider ölkəsi olmasının BMT-nin üzv ölkələri tərəfindən birmənalı qəbul edilməsinin faktiki nümunəsidir.




**Mustafa KAMAL,**
**"Respublika".**